# 9 (22) YANVAR 1905-Cİ İLƏ BƏNZƏR 20 YANVAR 1990-CI İL

**9 (22) yanvar1905-ci il. Keşiş Qaponun təşkilatçılığı ilə yarım milyona yaxın fəhlə, öz tapdanmış hüquqlarının bərpası üçün Saray meydanına axışırdılar. Əllərində ikonalar, çarın şəkillərini tutmuş dinç nümayişçilər, heç nədən xəbərsiz olaraq, qəflətən güllələbaran pusqusuna tuş gəldilər. 4600-dən çox əliyalın, silahsız insanlar qətlə yetirildilər. "Atəş" əmrini verən car Nikolayın əmisi, Peterburq general-qubernatoru böyük knyaz Vladimir idi. O vaxt baş verənlər barədə Lenin belə yazırdı: "Bu, əli yalın və dinç xalq kütlələrinin ən alçaq və rəhmsiz qətli idi."(c.9, s.228).**

20 yanvar 1990-cı il. Bu tarix isə, ermənilərin sonuncu azəri türklərini öz əzəli və əbədi torpaqları olan Ermənistan adlanan torpaqlardan qovub çıxartdıqları gündür. İrəvan, Zəngəzur, Göyçə, Dərələyəz, Basarkeçər, Gümrü, Vedi və s.bir çox mahallardan sonra təkrarlanan bu qanunsuz köçürmələr, haqlı olaraq Azərbaycandakı soydaşlarının etirazlarına səbəb olmuşdur.

### *Ona görə də*

onlar Moskvaya etiraz əlaməti olaraq, yanvarın 19-dan 20-nə keçən gecə şəhərin şimal qapısı sayılan 1-ci mkr.-n ətrafında toplaşmışdılar. Soyuq yanvar gecəsində ocaq çatıb, öz azyaşlı övladları ilə birlikdə isinən, deyib gülən etirazçılar, Moskvadan ədalətli qərar gözlədikləri halda, qəflətən tank və BTR-lərdən, avtomat və pulemyotlardan başlarına mərmilər yağdırıldı. Qan su yerinə axdı. Hər tərəf böyüklü-kiçikli insan cəsədləri ilə örtüldü. Əsgərlərə bu dəfəki "atəş" əmrini verən isə, vətəndaşlarının təhlükəsiliyi üçün SSRİ Konstitusiyasına əl basıb and içən, dünyanın altıda birinə nəzarət edib əsarətdə saxlayan, vətəndaşlarına mənəvi ata sayılan ölkə başçısı, başı xallı, erməni oyuncağı Mixail Qorbaçov olmuşdu.

**Göründüyü kimi hər iki qətliam eyni əsrdə, 85 il fərqlə, eyni tarixdə, eyni ayın bazar günündə edilmişdir. Hər iki halda əli yalın, silahcız dinç insanlar öz hüquqlrını tələb etmək üstündə vəhşicəsinə öldürülmüşdülər.**

Yatıb yuxularımıza belə gətirə bilməzdik ki, 300-illik Romanovlar sülaləsini taxtdan salıb hakimiyyətə gələn, çarizmi böyüməkdə olan uşaqlara cəllad, qatil kimi tanıtdıran bolşeviklər , zaman keçdikdən sonra, özləri də yırtıcı canavara dönüb , çarizmdən daha qəddar bir rejimə çevriləcəklər.

Bunu mən bolşevizmin yarandığı ilk gündən süquta yetdikləri günə kimi, 70 il müddətində mənsub olduğum türk millətinin başına gətirdikləri misilsiz məhrumiyyətlərə əsaslanıb yazıram. İstər çar üsulidarəsi, istərsə də bolşevizm, həmişə faşist erməni ideologiyasına xidmətçi olubdur. Əgər çarizm 1890-cı ildə yaranmış bədnam "Daşnaksütyun"un sərsəm qərarlarını 1905-1907, 1914-1915-ci illərdə həyata keçirməyə başlamışsa, bolşevizm isə daha çevik hərəkət edərək 1918-ci ilin mart qırğınlarını, 1920-ci ildə Milli dövlətimizin devrilməsini, 1930-cu illərdə millətimizin qaymaqlarının Nargində, Şimal buzlu okeanında, soyuq Sibir tayqalarında, Opta Asiyanın ilan mələyən səhralarında məhv edilmələrinə, 1948-52 və 1988-90-cı illərdə qanunsuz köçürmələrə rəvac vermişdir. Bununla da kifayətlənməyib, süquta yetmiş sovet rejimindən sonra hakimiyyətə gəlmiş indiki hökumətin keçmiş sələfləri torpaqlrımızın daha 20 faizinin işğal edilməsində, Xocalı şəhərinin əhali qarışıq yer üzündən silinməsinə dəstək vermişdir.

Budur, 20 yanvar 1990-cı il qanlı bazar günündən 30 ildir keçir.Yaşlı nəslin sağ qalmış nümayəndəsi kimi, o tarixi yaşayıb görənlərdən biriyəm. Əyər əksikliyi olmadan o qanlı gecədə və ondan sonrakı günlərdə gördüklərimi dəqiqliklə qələmə alıram.

### *Mənzilimiz*

şəhərin ən yüksək nöqtəsində inşa edilmiş çoxmərtəbəli binanın sonuncu mərtəbəsində yerləşdiyindən, yanvarın 19-dan 20-nə keçən gecəsi ediləcək hücuma, hərbçilərin gündüzdən ona necə hazırlaşdıqlarını açıq aydın görürdüm. Gecə ikən qatarla gətirilən hərbi texnikalar Xırdalan pivə zavodu yanındakı Şamaxı yolunda, Biləcəri dəmiryol stansiyası meydanında, dəmiryol xəstəxanası ətrafında, Biləcəri aşırımında, Sumqayıt yolunda üzləri şəhərə doğru düzülürdülər.

Bir gün əvvəl isə Novxanı kəndi, Biləcəri qəsəbəsi, Xocasən və Yasamal vadisi üzərindən uçub, dəniz səmasında gözdən itən qrup halında çoxlu hərbi vertalyotlar uçub gəlirdilər.

Çox sürətlə uçan qrupların hər birində neçə vertalyot olduğunun yalnız bir neçəsini saya bildim; 32, 27, 17

Axşam yenicə düşmüşdü. Televizorda uşaqlar üçün çizgi filmi göstərilirdi. Birdən ekran qaraldı. Küçə və xiyabanlarda işıqlar söndürüldü. Moskvadan gəlib qayıtmış dövlət rəsmisinin silahdan istifadə olunmayacağı barədə bəyanatına inanan etirazçılar, hələ də böyük inam içərisində, ağır yüklü maşınlardan və troleybuslardan barrikada qurub gözləyirdilər.

### *Gecə saat 12-ni göstərirdi*

Birdən yer-göy lərzəyə gəldi. Tanklar, zirehli maşınlar uzaqvuran işıqlarını yandırıb hərəkətə gəldilər. Barrikada tankların lülələri vasitəsilə ətrafa səpələndirildi. Atəş səsləri eşidildi. Silahlı basqından xəbərsiz olan nümayiş iştirakçılarının qıyqışqırıq və fəryad səsləri eşidildi. Qaranlıq gecədə atılan işıqlı güllələrin çalın-çarpaz uçuşları quyruqlu ulduzları xatırladırdı. Nərildəyən hərbi texnika hər küçəyə, hər dalana daxil olub, ağına-bozuna baxmadan hər tərəfə, hətta evlərin işıq gələn pəncərələrinə atəş acırdılar.



Tankların tırtılları altında qalıb əzilən minik maşınlarından qopan ürpərdici səslərdən adamlar az qala huşlarını itirəcəkdilər.

**Güllə səsləri şəhərin dərinliklərinə doğru irəliləyirdi. Şəhər demək olar ki, hər tərəfdən mühasirəyə alınıb, intensiv güllələbaran edilirdi. Heç kəs cürət edib çölə çıxa bilmirdi. Respublikanın informasiya vasitələri işləmirdi. Qohum-əqrabamızın, qapı bir qonşumuzun taleindən xəbərsiz idik. Şəhərdə komendant saatı tətbiq olunmuşdu. Şəhər üç gün bu vəziyyətdə atəş altında yaşadı. Dördüncü günü şəhərdaxili radio şəbəkəsi xırıltılı səslə danışmağa başladı. (O vaxt bütün evlər radiolaşdırılmış vəziyyətdə təhvil verilirdi).**

Efirdə, səsi güclə eşidilən, ağlamsınan Xalq Şairi Bəxtiyar Vahabzadə idi. O, millətin bir hissəsini qəbir qazımaq üçün Dağüstü parka (indiki Şəhidlər Xiyabanı), digər hissəsini isə şəhidlərlə vidalaşmaq üçün Azadlıq Meydanına çağırırdı. Dövlət tamamilə sahibsiz qalmışdı. Onun başçısı, el arasında "bambılı", "tələxək" adlandırılan Vəzirov gizli yolla Moskvaya, ağalarının yanına qaçmışdı. Vətəndaşlarının təhlükəsizliyi üçün tam məsuliyyət daşıyan Baş nazir də, Vəzirovdan geri qalmayaraq, daha yüksək səlahiyyət sahibi olmaq üçün o da Moskvaya uçmuşdu. Qoşunların respublikaya daxil olmalarına razılıq verməli olan şəxs, Azərbaycan Ali Soveti Rəyasət Heyyətinin Sədri Elmira xanım Qafarova isə bir tikə yağlı loxmaya dönüb yoxa çıxmışdı.

### *Xalq, millət təəssübkeşliyi ilə*

**həmişə öndə gedən Bəxtiyar müəllim isə,adı çəkilən üzdəniraq rəhbərləri əvəz edib, sinəsini qabağa vermişdi. Hiddətlənmiş xalqı birliyə, təxribata uymamağa çağırırdı. O, Bakıda və digər bölgələrdə baş vermiş çoxlu sayda insan təlafatlarına görə rus generalının sifətinə tüpürmüşdü. Generalın adyutantı avtomatının tətiyini çəkib şairi vurmaq istəyəndə, o, yaxasını açıb; "Vurun, qatillər! Mən öldürdüklərinizdən artıq deyiləm"-demişdi.**

Qırğınların ilk dəqiqələrindən özünə gələ bilməyən, keçirdiyi həyacandan gözləri qan çəkmiş , 1905, 1915,1918 və 1930 illərdə ermənilər tərəfindən törədilən qırğınlarda çoxlu sayda qohum-əqrabasını itirməsi haqda yaxşı məlumatı olan 80 yaşlı anamın təkidi ilə Azadlıq meydanına getdik.

O, yüz minlərlə analara qoşulub, şəhid balalarımıza ağı dedi. İzdihama qoşulub şəhidlərin dəfn olunduqları yerə kimi getdi, bolşevik partiyasından imtina edərək, atılan partiya biletləri toplusuna, ağzında sümük gəmirən Qopboçovun karikaturasına tüpürdü.

### *Yaranmış nisbi sakitlikdən*

istifadə edib, dəfn mərasiminin səhərisi, övladlarımı da götürüb, hadisələrin baş verdiyi yerlərə getdim. Qatillər üç gün gecə-gündüz çalışsalar da törətdikləri cinayətlərin izini hələ də tam itirməyə nail ola bilməmişdilər. Ağaclar, səkiqırağı kollar arasında qalmış , sahibləri qətlə yetirilmiş uşaq oyuncaqları, kişi-qadın ayaqqabıları, baş örtükləri, tankların basıb keçdikləri qanlı maşın skletləri, metal süpürgəli maşınların belə qaşıya bilmədikləri qan gölməçələrinin torpağa və asfalta hopmuş izləri, Salyan kazarmalarının Tbilisi prospektindəki darvazası ağzında tankların, zirehli maşınların təkərləri altında qalıb asfalta yapışmış insan cəsədlərinin siluetlərinin izləri, güllələbarandan naxışlanmış bina fasadları, poçt şöbəsində daldalanmaq istəyən adamın dəlik-dəlik olmuş qanlı pencəyi və s. görənləri dəhşətə gətirirdi. Qatillər bu görüntüləri saxlamaqla sanki bizə göz dağı çəkirdilər. Kənarda durub avtomatını hazır vəziyyətdə tutub duran başı kaskalı rus əsgərləri, özlərindən məmnun halda, gələn ziyarətçiləri seyr edirdilər.

Şəhərdə, öldürülmüş insanların meyitlərini gəmilərə yüklənərək dənizin dərinliklərinə daşınmaları, Salyan kazarmasındakı meçitin və şəhərdəki morqların meyitlərlə dolub- daşmaları haqda söz-söhbətlər gəzirdi. İtgilərin sayı haqda verilən rəsmi məlumatlar həqiqəti əks etdirmirdi. Düşmənin vəhşi təbiətli xüsusi təyinatlıları erməni faşist quldurları ilə əlbir olub, növbəti dəfə millətimizə amansız divan tutmuşdular. Elə bil dünya müharibələrində ruslara qələbə qzandıran, onların bir imperiya olaraq yer üzündən silinməmələri üçün cəbhəni yanacaqla təmin edən heç Bakı nefti deyilmiş.

Çörəkləri dizləri üstə olan bu nankorlar, 300 mindən çox ər və oğullarını rus cəbhələrində qurban verən, özləri isə cəbhəni fasiləsiz olaraq yanacaqla təmin etmək üçün gecə-gündüz buruqlarda çalışan anaların oğul və nəvələrini dinc dövrdə erməni fitvasına uyub qətlə yetirmişdilər. Siz qatillərə Allahın lənəti, nifrəti və qəzəbi olsun!

### *Əfsuslar ki,*

zaman-zaman sinəmizə çəkilən bir belə dağla, unutqanlıq edib qazandığımız müstəqilliyimizə hələ də xor baxanlar var. Müstəqilliyimizə şübhə edib, "bəlkə də qaytardılar" mövqeyində duran bəzi "əvəzedilməz" məmur və millət vəkilləri lazımi sənədlərə imza atmaqdan imtina edirlər. Bəlkə də bu biganəliyin nəticəsidir ki, Respublikamıza səfər edən Rusiya Federasiyasının bir çox rəsmiləri,Şəhidlər Xiyabanını ziyarət etməkdən imtina edirlər. Bu, şəhidlərimizin ruhuna təhqir və hörmətsizlikdir.

**HAŞİYƏ:** Sovet dönəmində cəmi bircə dəfə, 1972-ci ildə ADR-də (Almaniya demokratik respublikasında) turist səfərində olmuşdum. Səfərimiz ilk olaraq Buhenvald əsir düşərgəsindən başlamışdı. Biz, alman faşistləri tərəfindən işğal edilmiş ərazilərdən zorla çıxarılaraq Almaniyaya gətirilən dinç əhalinin və hərbi əsirlərin burada qətlə yetirilərək krematoriyalarda necə yandırıldıqlarının izlərini gördük. Muzeyi xatırladan başqa bir binada isə, mərmisi tam mərkəzdən keçmək şərtilə, əyləncəli mərc oyununda udulan, formalin məhlulunda saxlanılan insan ürəyi və insan dərisindən hazırlanmış qadın əlcəkləri, qadın əl sumkaları, abajur örtükləri, termiki üsulla kiçildilən, lakin, forması dəyişilməz qalan insan kəllələrindən düzəldilmiş qədəh dəstləri və s. nümayiş etdirilirdi.

Səfərimizin sonuna yaxın Drezden şəhərinə gəldik. Avtobusumuz ətrafı çəpərlənən yarıuçulmuş nəhəng bir binanın qarşısında dayandı. Tərcüməçi qız, müxtəlif dillərdə yazılmış məlumat lövhəsindən bu sözləri oxudu: "Bu bina 1944-cü ildə aviasiya hücumları zamanı müttəfiqlər tərəfindən vəhşicəsinə bombardman edilmişdir".

Tərcüməçi qız bu sözləri elə intonasiya ilə danışırdı ki, az qala dəvə kimi ağzından köpük daşdıyacaqdı. Çox təəccübli idi. Bir əsrdə bəşəriyyəti iki dəfə qan dəryasına qərq edən bir millətin nümayəndəsi, xəcalət hissi keçirmədən viran etdikləri minlərlə şəhərləri, insanlığa sığmayan milyonlarla qətlləri unudaraq mənəviyyatdan danışırdı

**Bilmirəm, fikrimi çatdıra bildimm sizlərə? Nə olardı, 20 yanvar gecəsi fasadları atəşə tutulan binalardan bir neçəsini biz də gələcək nəsil üçün "yadigar" saxlayaydıq. Onların üzərlərinin tələmtələsik suvanmalarına, üstlərinin rənglənməsinə tələsməyəydik.**

**Vaqif Məmmədov**
**Bakı şəhəri, 9-cu mkr-n,**
**Mir Cəlal küçəsi,73, m.22**